2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 13 yanvar 2025-ci il tarixli 5 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri 13 yanvar 2025-ci il

Mən, ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərov 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində 53 saylı Yevlax-Mingəçevir seçki dairəsindən Salahlı bələdiyyəsi üzrə namizədlikləri öz təşəbbüsləri ilə irəli sürülmüş Quliyev Səbuhi Hüseyn oğlu, Nuriyev Ruslan Şahid oğlu və digərlərinin həmin seçki dairəsi dairə seçki komisiyasının sədrinin və katibinin hərəkətsizliyinə və bununla bağlı müvafiq tədbir görülməsinə dair 13 yanvar 2025-ci il tarixli 5 saylı müraciətini araşdıraraq m ü ə y y ə n e t d i m:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü kimi tərəfimdən nəzərdən keçirilmiş və bu barədə müvafiq rəy verilmişdir.

Daxil olmuş müraciət nəzərdən keçirilərkən müəyyən olunmuşdur ki, şikayət Mərkəzi Seçki Komissiyasına seçki qanunvericiliyində nəzərdə tutulmuş şikayətvermə müddəti ötürülməklə ünvanlanmışdır və bu səbəbdən də həmin müraciət şikayət vermiş şəxslərə geri qaytarılmalıdır.

Seçki Məcəlləsinin 112.1-ci maddəsinə görə seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilər.

Seçki Məcəlləsinin 112-1.14.1-ci maddəsinə əsasən, şikayət qanunla müəyyən olunmuş qaydada və müddətdə, yəni qərardan, hərəkətin (hərəkətsizliyin) baş verməsindən və ya maraqlı tərəfin xəbərdar olmasından sonra 3 gün ərzində daxil olmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə əsasən **r ə y ə g ə l d i m:**

1. 2025-cü il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində 53 saylı Yevlax-Mingəçevir seçki dairəsindən Salahlı bələdiyyəsi üzrə namizədlikləri öz təşəbbüsləri ilə irəli sürülmüş Quliyev Səbuhi Hüseyn oğlu, Nuriyev Ruslan Şahid oğlu və digərlərinin Mərkəzi Seçki Komissiyasına daxil olmuş 13 yanvar 2025-ci il tarixli 5 saylı müraciəti qanunvericiliklə müəyyən olunmuş şikayətvermə müddəti ötürülməklə verildiyindən şikayət etmiş şəxslərə geri göndərilsin.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərov